Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

ictimai-siyasi qəzet

№ 3-4 (7580-7581) * 1933-cü ildən nəşr olunur * Cümə axşamı, 16 yanvar 2020-ci il. news@qebele-ih.gov.az

**İlham ƏLİYEV:** *Keçən il iqtisadi sahədə böyük müsbət nəticələr əldə edilmişdir. Bu nəticələr göstərir ki, bizim siyasətimiz düşünülmüş siyasətdir.*

# Ölkə başçısı İlham Əliyev 2020-ci il üçün yeni hədəflər müəyyənləşdirdi



Yanvarın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirə keçirilib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı müşavirədə giriş nitqi söyləyib.

Müşavirədə Maliyyə naziri Samir Şərifov, Baş Nazirin müavini Şahin Mustafayev, Mərkəzi Bankın sədri Elman Rüstəmov, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev, İqtisadiyyat naziri Mikayıl Cabbarov, Kənd Təsərrüfatı naziri İnam Kərimov, Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev 2019-cu ildə görülmüş işlər və 2020-ci ildə qarşıda duran vəzifələrlə bağlı məlumat veriblər.

Dövlət başçısı müşavirədə yekun nitqi söyləyib.

## Prezident İlham Əliyev: İslam dəyərləri milli-mənəvi dəyərlərimizin ayrılmaz hissəsidir

Biz dərin milli-mənəvi təməl üzərində müasir dövlət qurmuşuq. İslam dəyərləri milli-mənəvi dəyərlərimizin ayrılmaz hissəsidir. Biz öz dinimizə bağlıyıq, dünyada islam mədəniyyətini təbliğ edirik. Dünyada çoxsaylı konfranslar, sərgilər, təqdimatlar keçirilir, Azərbaycan həqiqətləri, islam mədəniyyətinin həqiqətləri dünya ictimaiyyətinə təqdim edilir. Biz islamı olduğu kimi, sülh, mərhəmət dini kimi dünyaya təqdim edirik və bu fəaliyyəti bundan sonra da davam etdirəcəyik.

AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin yenicə çapdan çıxmış 95-ci kitabında yer alan bu fikirlər dövlətimizin başçısının Ramazan ayı münasibətilə iftar mərasimində iştirakı zamanı söylədiyi nitqində yer alıb.

Akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin növbəti kitabındakı materiallar 2019-cu ilin mayından avqust ayınadək olan dövrü əhatə edir.




Kitabda "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri verilib.

"Azərnəşr" tərəfindən buraxılan 95-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin materiallarından istifadə olunub.